# Ər və arvadın psixoloji xüsusiyyətləri və qarşılıqlı münasibətlərə onun təsiri

**Gülər Akif qızı Məmmədova**
*ADPU-nun "Ümumi psixologiya" kafedrasının*
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** gulermemmedova@list.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. R.İ. Əliyev,
psixol.ü.f.d., dos. N.T. Rzayeva

**Açar sözlər:** qadın, aqressiya, ixtilaf, emosional sabitlik, davranış, psixoloji problemlər
**Ключевые слова:** женщина, агрессия, конфликт, эмоциональная устойчивость, поведение, психологические проблемы
**Key words:** woman, aggresion, conflikt, emotional stability, behavior, psychological problems

Ər-arvad münasibətlərində daha çox diqqəti cəlb edən, müəyyən mənada problemlərin yaranmasına səbəb olan kişi və qadının əks tərəfin psixoloji xüsusiyyətlərini bilməməkləri ilə bağlıdır. Bu isə qarşılıqlı anlaşmanı, ər-arvad arasında empatiyanın yaranmasını çətinləşdirir. Nəticədə ailədaxili münasibətlərdə gərginlik yaranır.

Təbiətdə, eləcə də cəmiyyət həyatında hər bir şey qoşadır: qaranlıq-işıq, şər-xeyir, olum-ölüm, məhəbbət-nifrət və s. Elə bil ki, həyatda hər şey əks qütblüdür. Amma o da məlumdur ki, bunlardan birinin olmaması digərinin də olmaması anlamına gəlir. Bir-biri ilə əks olan kişinin və qadının həyatı da eyniyyət təşkil edir. Onlardan birinin digərindən təcrid olunması qeyri-mümkündür. İşdir belə olsaydı həyatda insanlığın sonu olardı.

Cinslərarası fərqlərin olmasını bir sıra tədqiqatçılar (S. Xoll, K. Qetçinson və b.) otnogenetik inkişafla filogenetik inkişaf arasında oxşarlığın olduğunu əsaslandırırlar. *"Mühüm bioloji determinantların təsiri ilə cinslər arası morfoloji və fizioloji fərqlər meydana gəldi. Bunun əsasında əməyin kişi və qadın növü yarandı. Əmək sahələrinin fərqləndirilməsi sosiogen determinantların təsiri ilə (adət, ənənə, tərbiyə və s.) qadın və kişi psixologiyası fərqlənməyə başladı"* (8, s. 269).

Tədqiqatlar (Ə.Ə. Əlizadə, İ.S. Kon, A.Q. Xripkova və b.) göstərir ki, kişi və qadınların beyninin quruluşu bir-birlərindən fərqlənir.

Kişilərlərlə müqayisədə yarımkürələrarası əlaqə qadınlarda çoxsaylı və daha intensivdir. Elə bu səbəbdən də qadınlarda yarımkürələrdə toplanmış məlumatların analiz və sintezi daha səmərəli və mükəmməl formada reallaşır. Bu da imkan verir ki, davranış və psixikada təzahür edən cinsi fərqlərin psixoloji xüsusiyyətlərinin elmi izahı verilsin.

*"Qadınlarda eyni vaxtda həm sağ, həm də sol yarımkürələr sinxron şəkildə fəaliyyət göstərir. Bu, qadınlara imkan verir ki, eyni vaxtda bir neçə işi eyni dərəcədə səmərəli şəkildə yerinə yetirsinlər* (3, s. 42).

Deyilənlərin təhlili qadınların davranışının psixoloji mexanizmini müəyyən mənada dərk etməyə imkan verir. Yəni qadınların eyni vaxtda həm yemək hazırlaması, telefonla danışması və televizora baxması məhz bu yöndən izah oluna bilər. Kişilərdə isə bu proses fərqlidir. Yəni onların həminki anda beyin yarımkürələrindən biri aktiv olur. Elə bu səbəbdən də qadınların səbirsizliyi, fikirləşdiklərini həmin anda söyləməsi, başqa sözlə analiz-sintez məhdudluğu kişi

ilə aralarında anlaşmazlığa səbəb olur. Başqa sözlə, kişi iş görən vaxt qadın ona nəyisə izah etməyə çalışırsa aralarında anlaşılmazlıq, narazılıq baş verir. Qadın hesab edir ki, əri ona qarşı laqeyddir, elə bu səbəbdən də ona fikir vermir, diqqət yetirmir. Kişi isə əksinə, fikirləşir ki, qadın mənasız şeylər danışır və onu işdən ayırır. Ər və arvadın fərqli psixoloji xüsusiyyətləri istənilən halda problem yaradır. Lakin digər bir problem fərdi xüsusiyyətlərlə bağlıdır.

Həyat və fəaliyyətin bütün sahələrində olduğu kimi ailə həyatında, xüsusilə, ər-arvad münasibətlərində digər psixoloji xüsusiyyətlərlə yanaşı temperament tiplərinin də öz təsiri vardır.

Qadınlar şəxsiyyətlərarası münasibətə xüsusi fikir verir və burada uğur əldə etməyə səy göstərirlər. Öz təbiətlərindən irəli gələn bu xüsusiyyət onlara imkan verir ki, hadisələri, vəziyyəti, baş verənləri daha tez, dəqiq və asan qavrasınlar. Şəxsiyyətlərarası münasibətlərdə uğur qazanmaq, özünü digər qadınlarla müqayisə etmək istəyi onların vaxtaşırı yeni paltar almaq, bər-bəzək taxmaq həvəsini artırır.

Qadınlar bəzən kişinin görmədiyi və ya az əhəmiyyət verdiyi şeyləri diqqətdən qaçırmırlar. Məsələn, hesab edək ki, qadın çoxdan arzuladığı sırğanı nəhayət əldə edib. İstəyir ki, əri onun sırğasını tərifləsin, çox yaraşdığını söyləsin. Lakin istəyir ki, sırğanı əri onun qulağında görsün. Hər vəchlə çalışır ki, ərinin diqqətini sırğaya yönəltsin. Bu alınmadıqda ərinə sual verir: "Bax, gör məndə nə dəyişib? Bax, yaxşı bax, başıma, saçıma, qulağıma bax". Kişi isə deyilənləri görmür. Nəhayət qadın əsəbiləşir, kişinin diqqətsiz olduğunu söyləyir. Təbii burada kişini qınamaq olmaz. Bu, kişi psixologiyasının xüsusiyyətidir. Ər-arvad münasibətlərindəki anlaşılmazlıqlar məhz fərqli psixoloji xüsusiyyətlərdən yaranır. Eyni zamanda o da həqiqətdir ki, onları bir-birinə bağlayan da məhz bu fərqli psixoloji xüsusiyyətlərdir.

Sosiogen determinantlar öz növbəsində cinslərarası sosial və psixoloji fərqlərin meydana çıxmasına şərait yaradır. Bu özünü daha çox ictimai-istehsal və ailə-məişət sahələrində göstərir. Bunlardan birincisi tarixən kişilərə aid edilən sahə olub. Qadınların fəaliyyəti isə ailə məişət işləri ilə məhdudlaşıb. Tədricən istehsal münasibətlərinin inkişafı ictimai-istehsal sahəsində də qadınların kişilərlə bərabər aktiv iştirakına zəmin yaradıb. Eyni zamanda tədricən kişilər də ailə-məişət işlərinə cəlb olunublar. Bununla yanaşı müasir dövrdə də qadınların ailə-məişət işlərində çalışması üstünlük təşkil edir.

Ailə təsəvvürləri və iddia səviyyələri ilə bağlı cinsi fərqlər də nəzərə çarpır. Adətən qızların həm təsəvvürləri, həm də istəkləri daha üstündür. Burada təhsil də vacib rol oynayır. Tələbə qızlar daha çox şərt irəli sürur. "Mən istəmədiyim, özümə tay bilmədiyim oğlanla ailə həyatı qurmaram" söyləyirlər.

Göründüyü kimi, qadın və kişi arasında sosial-psixoloji fərq faktiki olaraq ailə-nikah münasibətlərinin bütün sahələrini əhatə edir. Bu, cinslərarası fərqlərin öyrənilməsini zəruri edir. Cinsi fərqlərin öyrənilməsi, xüsusilə ailə-nikah məsələlərinin, ər-arvad münasibətlərinin tənzimlənməsi baxımından faydalıdır. Belə olan halda ailənin psixoloji mühiti sabit, müsbət olur. Bu da öz növbəsində onların əmək fəaliyyətinin səmərəliliyini artırır. Ailədaxili konfliktlərin də başlıca səbəblərindən biri ər və arvadın əks tərəfin psixoloji xüsusiyyətlərini bilməmələrindən yaranır. Vacib məsələlərdən biri də uşaqların tərbiyəsidir.

Məlumdur ki, övlad tərbiyəsi sahəsində də ata və ananın fərqli mövqeyi meydana çıxır. Xüsusilə, tərbiyə ilə bağlı ər-arvad arasında kəskin fərq özünü göstərdikdə.

Ötən əsrin 60-80-ci illərində aparılan tədqiqatlar göstərir ki, valideynlərin təhsil səviyyəsi uşaqların da təhsilə münasibətinə təsir göstərir. Məlum olmuşdur ki, yüksək təhsili olan valideynlərin uşaqları təhsili olmayan valideynlərin uşaqlarından üç dəfə pis oxuyurlar. Bu tədqiqatların nəticələrinə əsasən belə fikir formalaşmışdır ki, müəllim, mühəndis və həkimlərin uşaqları bir qayda olaraq valideynlərinin peşəsini seçirlər. Əlbəttə müasir dövrdə vəziyyət bir

qədər dəyişmişdir. İlk növbədə qeyd etmək lazımdır ki, bir sıra ənənəvi peşələr sıradan çıxmış və bir sıra yeni peşə sahələri yaranmışdır. Əlbəttə, bunları müəllim, mühəndis, həkim və s. bu kimi peşələrə aid etmək olmaz.

Müasir dövrdə problemin digər psixoloji tərəfləri də meydana çıxmışdır. Bura aid olan indiki yeniyetmə və gənclərin psixologiyasında baş verən dəyişikliklərlə bağlıdır. İndi onlar daha çox sərbəst qərar qəbul etməyə meyl göstərirlər. İndi övladların seçmək istədikləri, nüfuzlu hesab etdikləri bir sıra peşələr ötən əsrdə ümumiyyətlə olmayıb. Müasir dövrdə proqramlaşdırma, turizm, beynəlxalq əlaqələr və s. daha çox seçilən sahələr olub.

Ailədaxili münasibətlərdən bəhs edərkən yalnız onun pozitiv tərəflərindən deyil, həm də neqativ tərəflərindən danışmaq lazım gəlir. Çünki müsbət tərəflərlə yanaşı ailə münaqişələri, boşanmalar, valideyn-övlad arasında anlaşılmazlıq həyatın reallığıdır. Başqa sözlə, bir sıra hallarda, ya valideynlərin öz aralarında problem yaşanır, yaxud da valideyn övladı üçün yaxşı nümunə ola bilmir.

Ailədaxili münasibətlər heç də həmişə rahat olmur. Bir çox hallarda münaqişə, yersiz mübahisə, gərginlik boşanmaya səbəb olur. Ailədə mübahisə digərləri ilə müqayisədə daha tez-tez baş verir. Hətta demək olar ki, bu qaçılmazdır. Mübahisə ailədaxili münasibətlərin yalnız bir tərəfidir. Belədə münasibətlər müvəqqəti pozula bilər və keçicidir. Münaqişə isə ailə həyatının bir sıra tərəflərini əhatə edir. Ailədəki böhran daha geniş sahələrə təsir edir. Onun həlli üçün daha ciddi dəyişikliklərin edilməsi vacibdir.

Boşanma birmənalı şəkildə bütün əlaqələrə son qoyulmasıdır. Ailənin dağılması, ən azı vəziyyətin son dərəcə dramatikləşməsi ər və ya arvadın xəyanəti nəticəsində baş verir. Yuxarıda göstərilənlər məişətlə bağlıdırsa, xəyanət ləyaqətin, hislərin tapdanması, təhqir olunmasıdır. Digər hallarda ailənin qorunması mümkündürsə, xəyanət baş verdikdə ailənin dağılması ehtimalı çoxalır. Münaqişədən, mübahisədən, dava-dalaşdan ailə üzvlərinin hamısı əziyyət çəkirsə, xəyanətdən ər və arvad əziyyət çəkir.

Ər-arvad xəyanətinin səbəb və formaları müxtəlifdir. Xəyanət çox güclü psixoloji təsirə malikdir. Son vaxtlar ər-arvad xəyanətinin başqa bir forması, həm də digərləri ilə müqayisədə daha asan forması özünü göstərir. Onun şərti adı "İnternet tanışlığı"dır. İnternet tanışlığının yaranması bir çox amillərlə bağlıdır. Başlanğıcda bu, əylənmək, darıxmağın qarşısını almaq xarakteri daşıyır, tədricən ciddiləşir.

Ailədə qarşılıqlı münasibətlər bir qayda olaraq horizontal və şaquli müstəvidə qurulur. Başqa sözlə, bu münasibətlər valideyn-övlad, ər-arvad arasındakı münasibətlərdən ibarətdir. Yuxarıda ər və arvadın fərdi-psixoloji və şəxsi keyfiyyətlərində olan mənfi cəhətlər və onların neqativ təsirindən bəhs etdik. Məlumdur ki, göstərilən neqativ cəhətlər yalnız ər-arvad münasibətlərinə deyil, həm də övladlarla olan münasibətlərə təsir edir. Qarşılıqlı münasibətlərin gərginləşməsi, pozulması uşaq və yeniyetmələrin psixikasında, asosial davranışında əksini tapır.

Ailədaxili münasibətlərdə ər-arvad arasında anlaşmanın olması zəruridir. Tədqiqat apardığımız ailələrdən birinin nümunəsində fikrimizi izah edək.

Vaxtaşırı sərxoşluq edən, əsəbi olan kişinin ailəsində daha çox gərginlik olur. Bununla yanaşı onlar emosiyalarını idarə edə bildikdə vəziyyət böhran həddinə çatmır və digər ailə üzvlərinə ciddi şəkildə təsir etmir. Belədə övladlar mübahisəni ər-arvad arasında olan keçib gedən problem hesab edirlər.

Valideynin və yeniyetmə övladın şəxsi keyfiyyətlərində, davranışında hansısa problem özünü göstərdikdə bu, ailənin digər üzvlərinə də təsir göstərir. Onlarda qəzəb, laqeydlik, təəssüf hissi yaranır. Bütün bunlar isə son nəticədə ailənin psixoloji mühitinə təsir edir. Problemin

həll olunmaması emosional sferaya təsir edir və ailədə destruktiv vəziyyət yaranır.

Bir çox hallarda kənardan baxanda ailədə hər şeyin qaydasında olduğu təsəvvürü yaranır. Lakin diqqət yetirdikdə məlum olur ki, ailənin psixoloji uyuşma, ər-arvadın bir-birini başa düşməsində problem var. Bəzən ər-arvad ailənin maddi vəziyyətini yüksək səviyyədə təmin etmək üçün çox çalışır, istirahəti, asudə vaxtı, əyləncəni və s. unudurlar. Bu müddətdə uşaqlar böyüyür, yeniyetmə və gənc olurlar. Tədricən ailənin maddi imkanı istənilən səviyyəyə çatır. Daha qarşıda yerinə yetirilməli olan ümumi məqsəd yoxdur. Ər və arvad uzun bir müddətdə nə əldə etmək istədiklərini bildirdilər. Hesab edirdilər ki, istirahət, asudə vaxtın keçirilməsi, övladları ilə məşğul olmaq sonranın işidir. Təbii ki, uşaqlar kiçik olduğu zaman narahatlıq törətmirdilər. İndi böyüyüblər, özlərinin istək və arzuları, həyata baxışları var. Ata və ananın həyat tərzində, xarakterlərində kök salmış xüsusiyyətlər onların həyat tərzini dəyişmələrinə imkan vermir. Belədə valideyn-övlad arasında problem yaranır. Elə ər-arvad arasında da anlaşılmazlıq meydana çıxır.

Burada iki variant özünü göstərir. Ya problem getdikcə dərinləşir, yaxud da yenidən ər-arvad arasında ümumi məqsəd uğrunda çalışmaq meydana çıxır. Nişan motivasiya çox da sadə formada həll olunmur. Əgər başlanğıcda fəaliyyət maddi imkanı yaxşılaşdırmaqla bağlı idisə, indi imkanlı ailədə ümumi fikir, ümumi məqsəd və yeni münasibətlər sistemi qurmaqla bağlıdır.

Bir çox hallarda ailə həyatı ilə bağlı ər və arvadın düşüncələrində fərqlilik özünü göstərir. Onlar ailədə heç bir problemin olmadığı qənaətindədirlər. Ciddi narazılıq baş vermir. Qəribədir ki, sabit psixoloji mühit, sakitlik bir çox hallarda ər və arvadda frustrasiya yaradır. Bəzi hallarda isə ər və ya arvad ancaq özünü haqlı hesab edir, qarşı tərəfi isə günahkar qismində görür. Belə olduqda ailədaxili münasibətlərdə gərginlik yaranır.

Ailədaxili münasibətlərdə, xüsusilə ər-arvad arasında ünsiyyət vacib şərtlərdəndir. Ünsiyyətdə yaranan problem adətən onların intellektində, dəyərlərə münasibətindəki fərqlərdən irəli gəlir. Bir çox hallarda isə ər və arvadın qarşı tərəfin fərdi keyfiyyətlərini nəzərə ala bilməməsi səbəbindən problem yaşanır. Qadın fikirləşir ki, onun əməyini qiymətləndirmirlər. Ər isə fikirləşir ki, bu onun vəzifəsidir və buna görə ona "sağ ol" düşmür. Nəticədə kişi qadınına əhəmiyyət vermir, qadın isə bundan narazı qalır, əsəbiləşir.

Göründüyü kimi, həyat və fəaliyyətin bütün sahələrində olduğu kimi, ailədaxili münasibətlərdə də istər-istəməz münaqişələr baş verir. Bu münaqişələrin səbəbləri çox olsa da, nəticəsi oxşar olur. Bununla da ailənin psixoloji mühitində gərginlik yaranır. Bu gərginlikdən ailə üzvlərinin hamısı, xüsusilə yeniyetmələr əziyyət çəkir.

Ailədaxili münasibətlər, ailənin psixoloji mühiti istənilən halda öz-özünə formalaşmır. Burada ər və arvadın dünyagörüşü, peşə fəaliyyəti, təhsili, ətrafda baş verənlər, ailənin tərkibi və s. mühüm rol oynayır. Ailədaxili münasibətlərdən asılı olaraq nəinki uşaq və yeniyetmələrin şəxsiyyəti formalaşır, eyni zamanda valideynlərin də davranışında, şəxsi keyfiyyətlərində dəyişiklik baş verir. Bunlar isə öz növbəsində ailə üzvlərinin qarşılıqlı münasibət və ünsiyyətində əksini tapır. Vacib məsələlərdən biri də ailə üzvlərinin psixi sağlamlığı ilə bağlıdır. Psixi sağlamlıq və ailənin psixoloji mühiti, qarşılıqlı münasibətlər vəhdət təşkil edir. Birinin pozulması digərinə də ciddi şəkildə təsir göstərir.

**Məqalənin aktuallığı.** Sosial mövqe isə ailənin mənəvi dəyərlər üzərində qurulmasını təmin edir. Bu isə ailədə kişi və qadının hüquq bərabərliyini əsasını təşkil edir. Eyni zamanda qadının əfdən üzərinə düşən yük və vəzifə artır.

**Məqalənin elmi yeniliyi.** Peşə fəaliyyətindən, onun sahələrindən, peşənin xüsusiyyətlərindən asılı olaraq psixika və davranışda peşənin tələblərinə uyğun dəyişikliklər baş verir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Əldə olunan nəticələrdən valideynlərlə, kişi və qadınlarla iş aparan psixoloqlar faydalana bilərlər.

## Ədəbiyyat

1. Çələbiyev, N.Z. Ailə və gender psixologiyası. Dərs vəsaiti / N.Z. Çələbiyev, Ü.A. Əfəndiyeva. Bakı: ADPU, 2021.
2. Əfəndiyeva Ü.A. Əsrin gender konsepsiyası. Bakı, ADPU, 2017.
3. Əliyev, R.İ. Mən. Atam-anam. Sevgilim və övladlarım. Bakı, ADPU, 2019.
4. Həmzəyev M.Ə. Ünsiyyətin psixologiyası / M.Ə. Həmzəyev, S.F. Əmiraslanova. -Bakı, Nurlan, 2007.
5. Hüseynov E.A. Ailənin psixoterapiyası. Bakı: ADPU, 2021.
6. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı, Bilik, 2013.
7. Məmmədzadə, R.H. Konfliktlər, ailələr, məktəblilər. Bakı, Müəllim, 2004.
8. Социальная психология/ Под ред. Е.С. Кузмина, В.Е. Семенова. -Ленинград: ЛГУ, 1979.
9. Эйдемилер, Э.Г. Семейная психотерапия/ Э.Г. Эйдемилер, В.В. Юстиции. -Ленинград: Медицина, 1989.

**Г.А. Мамедова**

## Психологические особенности мужа и жены и их влияние на отношения

## Резюме

В статье рассматриваются психологические особенности мужа и жены, гендерные проблемы и их влияние на взаимоотношения в семье. Показано, что понимание мужем и женой особенностей женской и мужской психологии влияет и на их взаимоотношения. В то же время глубокое влияние оказывают на взаимоотношения мужа и жены в семье типы их темперамента. Отмечается, что каждому типу темперамента соответствует свой стиль поведения.

Женщины стремятся добиться успеха в межличностных отношениях и деятельности с мужчинами. Установлено, что существуют социальные и психологические различия между полами в зависимости от социогенных детерминант.

**G.A. Mammadova**

## Psychological characteristics of husband and wife and its impact on relationships

## Summary

In this article, psychological characteristics of wife and husband, gender related problems and their effects on the mutual relationships in the family are investigated. It is shown that, understanding of male-female psychological traits by both sides, also affects their mutual relationships. At the same time, temperament types influence the wife-husband relationship too. It is noted that every temperament type has its own individual behavior. Women attempt more on interpersonal relationships, while men strive to succeed in the field of activities. It is determined that, social and psychological differences between two sexes appear based on the sociogenic determinants.

**Redaksiyaya daxil olub:** 05.05.2022